**H.A.ALIYEV**
*Sumqayıt Dövlət Universiteti dosenti, t.e.n.*

# XX ƏSRİN 80-Cİ İLLƏRİNİN SONLARINDA AZƏRBAYCANDA SOVET MİLLİ SİYASƏTİNİN MAHİYYƏTİNƏ DAİR
## (1988-ci il Sumqayıt hadisələrinin materialları üzrə)

Soyuq müharibə dövründə SSRİ-in dağıtmaq məqsədilə müxtəlif planlar və konsepsiyalar işlənib hazırlanırdı ki, bunların arasında ən başlıcası çoxmillətli ölkədə etnik qruplar və millətlər arasında ədavətin qızışdırılması və geosiyasi maraqların toqquşdurulması mühüm yer tuturdu.

1985-ci ildə keçmiş Sovetlər Birliyində yenidənqurma siyasəti xalqın gözünü açdı. Təhrif olunmuş keçmişimizi bütün çılpaqlığı ilə gördük. İnandığımız adamlara, pərəstiş etdiyimiz insanlara, ideyalara münasibətimiz kökündən dəyişdi. Ölkədə ictimai-siyasi proseslər sürətlə inkişaf edirdi. Demokratik qüvvələr, kütləvi informasiya vasitələri Kommunist Partiyasına qarşı kəskin hücumlar edir, ətaləti, durğunluğu, mühafizəkarlığı, hər cür məhdudluğu, ayrıseçkiliyi aradan qaldırmağı tələb edirdilər. Ölkəni fikir ayrılığı bürümüşdü. Meydan siyasətçilərinin sayı artmaqda idi. Ölkə yavaş-yavaş tənəzzülə uğrayırdı. Xarici kəşfiyyat mərkəzləri, transmilli korporasiyalar, institutlar, konqresmenlər Sovetlər ölkəsində demokratiyanın inkişafına kömək pərdəsi altında öz dağıdıcı funksiyalarını məharətlə həyata keçirirdilər [3, s. 36-37].

Bu dövrdə Sovet rəhbərliyinə gələn M.Qorbaçov tərəfindən həyata keçirilməyə başlanan və böyük faciələrə səbəb olan yenidənqurma, aşkarlıq və demokratiya şüarı altında həyata keçirilməyə başlanan islahatlar SSRİ-də də şovinizm və millətçilik hisslərinin qızışdırılmasına, keçmiş sovet respublikalarının SSRİ tərkibindən çıxmaq və müstəqil dövlət yaratmaq hərəkatı genişləndi. Dağıdıcı qüvvələrin mövqelərini möhkəmləndirmək üçün etnik münaqişələr real variant idi. Yüzə yaxın millətin və xalqın nümayəndələrini təmsil edən Sovetlər ölkəsində milli ədavət salmaq böyük iğtişaşlara səbəb ola bilərdi. Belə kütləvi iğtişaşlar isə yenidənqurma elan olunduqdan sonra baş verdi.

1986-cı ildə Sov.İKP Siyasi Büro üzvlüyündən və Qazaxıstan KP MK-nın birinci katibi Dinməhəmməd Kunayev tutduğu vəzifədən uzaqlaşdırılıb, onun yerinə milliyyətcə rus olan Kolbinin təyin edilməsi Alma-Atada haqlı narazılığa və kütləvi aksiyaların başlanmasına səbəb oldu. Göründüyü kimi qazax-müsəlman birinci katibin rus xristianla əvəz edilməsi M.Qarbaçovun antimüsəlman mövqeyi ilə bağlı idi.

Ermənilər ölkədə gedən ictimai-siyasi proseslərdən öz məqsədləri üçün istifadə etməyə başladılar. Onlar qondarma Dağlıq Qarabağ problemini yaratdılar və bunu bütün dünyaya bəyan etdilər. Ermənilər yenidərqurma siyasətindən tarixi bir şans kimi istifadə etmək niyyətində idilər. Xaricdə yaşayan erməni lobbisi Yerevanda və Stepanakertdə (Xankəndində) yaşayan daşnaklara külli miqdarda vəsait ayırırdılar. Moskvadan Mixail Qorbaçovdan dəstək alan erməni millətçiləri Dağlıq Qarabağ torpağının guya əsrlər boyu erməni xalqına mənsub olduğunu bütün dünyaya sübut etmək istəyirdilər [3, s. 36-37].

Ermənilər və onların havadarları DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistana verilməsi təklifi ilə Qorbaçova müraciət etdilər. SSRİ-nin milli münaqişələr zəminində dağıdılması ssenarisinin müəllifləri və bunu həyata keçirməyə çalışan qüvvələr, o cümlədən erməni millətçi və seperatçıları Qarabağ uğrunda ümummilli erməni hərəkatına təkan verə biləcək tutarlı siyasi bəhanə əldə etmək üçün Azərbaycan SSR ərazisində antierməni ixtişaşları törətmək qərarına gəlmişdilər.

1987-ci ilin noyabrından Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər So-

veti sədrinin birinci müavini Heydər Əliyev heç bir əsas olmadan tutduğu vəzifədən azad edilmişdi. Bundan sevinən ermənilər daha fəal və açıq hərəkət etməyə başlamışdılar.

1988-ci il 27-29 fevral hadisələri Sumqayıtda törədilsə də, bu hadisələrin səbəbi nə Sumqayıtla, nə də ki, sumqayıtlılarla bağlı deyildi. Şəhər hadisələri törətmək üçün əlverişli məkan kimi seçilmişdi. Hadisələrin ən azı iki tərəfi vardı: birinci və bəlkə də ən əsas tərəf M.S.Qorbaçovun başçılığı ilə dünya sosialist sistemini və eləcə də SSRİ-ni dağıtmaq siyasətini həyata keçirən qüvvələr idi. İkinci tərəf fürsətdən istifadə edərək Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycandan qoparmaq və Ermənistana birləşdirmək istəyən erməni və ermənipərəst millətçi və separatçı qüvvələr olmuşdur. Hadisələr əvvəlcədən hazırlanmış ssenari ilə cərəyan etmişdi. Siyasi oyunda birinci açıq gedişi o zaman Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə köməkçisi olmuş akad. A.Ağanbekyan etdi. O, 1987-ci il noyabrın 17-də Parisdə Erməni Fransa İnstitutunun və Erməni Veteranları Assosiasiyasının onun şərəfinə təşkil etdikləri qəbulda çıxış edərək belə bir bəyanat verdi: «Mən istərdim ki, respublikanın şimali-qərbində yerləşən Qarabağ Ermənistanın olsun. O, Azərbaycana nisbətən Ermənistana daha çox bağlıdır. Mən bu istiqamətdə bir təklif irəli sürmüşəm. Ümidvaram ki, yenidənqurma, demokratiya şəraitində həmin problem öz həllini tapacaqdır» [2, s. 4].

A.Ağanbekyanın bu bəyanatı bəşər tarixinin inkişafı istiqamətinin diametral şəkildə dəyişildiyini bildirən, erməni millətçi və separatçı qüvvələri üçün Dağlıq Qarabağı ələ keçirmək uğrunda həlledici hərəkata başlamaq haqqında məxfi işarə idi [2, s. 4].

«Meqapolis ekspress» qəzetinin yazdığına görə, Ağanbekyanın Parisdəki çıxışını əsassız hesab eləmək olmaz. Belə ki, onun və erməni icmasının Moskvadakı nüfuzlu nümayəndələrinin M.Qorbaçova təsiri böyük olmuşdu. Sov. İKP MK katibi, Siyasi Büronun üzvü, «yenidənqurma»nın baş memarı sayılan Aleksandr Yakovlev «Exo Sumqaita» qəzetinin baş redaktoru Eyruz Məmmədova verdiyi müsahibəsində bildirmişdi ki, Ağanbekyan Parisdə öz təşəbbüsü ilə çıxış etməmişdi. O, Moskvadan dəstək almışdı. Məhz həmin çıxışdan sonra hadisələr sürətlə inkişaf etməyə başladı. İki qonşu respublika arasında konflikt yarandı. Məsələ böyüyüb SSRİ Ali Sovetinin sessiyasında baxıldı. Uzun müzakirələrdən sonra Azərbaycan torpaqlarının toxunulmazlığı elan olundu. Lakin bu qərar erməniləri qane etmədi, onlar Ermənistanda və Stepanakertdə kütləvi aksiyalar keçirməyə başladılar. Bunula da SSRİ-də ilk tətil Dağlıq Qarabağda keçirildi. Moskva isə ermənilərin çirkin hərəkətlərinə sükutla qarşılayırdı. Ermənilər atdıqları addımların yanlış olduğunu anladıqdan sonra onu «etiraf» etməyə cəsarətləri çatmadı, əksinə hadisələri gərginləşdirməyə başladılar. Onlar Dağlıq Qarabağda yaşayan dinc əhaliyə – azərbaycanlılara təzyiq göstərib, hər cür təhqirlərə, zorakılığa əl atdılar. Əsgəranda iki gənc azərbaycanlı ermənilər tərəfindən öldürülmüşdü [4, s. 2].

Bundan sonra hadisələr ildırım sürətilə cərəyan etməyə başladı. Ermənilər tərəfindən düşünülmüş siyasi gedişlər edilir, əvvəlcədən hazırlanmış aksiyalar bir-birini tamamlayır, addım-addım məqsədə yaxınlaşdırılırdı. Xankəndində və Yerevanda «Qarabağ uğrunda» mitinqlər təşkil olunur. Rəsmi Bakı isə baş verən hadisələrə heç bir reaksiya vermirdi. O zaman Azərbaycan rəhbərliyi, xüsusən Ə.X.Vəzirov Moskvanın tapşırığını yerinə yetirməyə cəhd edərək Bakıda gəncləri və tələbələri, kortəbii etiraz nümayişlərini dilə tutmağa çalışırdı. Moskva isə sanki bu hadisələrdən xəbərsiz kimi susur, özünü neytral müşahidəçi kimi göstərirdi. Dağlıq Qarabağda və Yerevanda tətillərin səngiməsi, dayanması qorxusu vardı. Bu zaman Ermənistanda yaşayan azərbaycanlıların mütəşəkkil şəkildə öz ata-baba yurdlarından zorla qovulması prosesi başlanır. Rəsmi Bakı yenə də bu hadisələrə biganə idi və çaşğın vəziyyətə düşmüşdü. İlk

qaçqınlar Bakıya, Sumqayıta gəlir, başlarına gətirilən fəlakətdən, zorakılıqdan şikayətlənir, cavab aksiyalarının həyata keçirilməsini tələb edir, nümayişlərə, yürüşlərə başlayırlar. Onların aralarında ustalıqla maskalanmış, Azərbaycan dilində səlis danışan erməni emissarlarının olduğunu o vaxt Azərbaycan tərəfi hadisələrin belə cərəyan edəcəyini heç ağlına belə gətirmirdi.

Əsrlər boyu öz kəmfürsətliliyi, namərdliyi ilə Azərbaycan xalqına, torpağına xəyanət edən, arxadan ona zərbə vuran ermənilər müdhiş Sumqayıt ixtişaşlarını öz mənfur niyyətlərinin həyata keçirilməsi ərəfəsində – Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi üçün hər tərəfli planlaşdırılmış hadisələrin qızğın çağında törətdilər. Məlumdur ki, 1988-ci ilin fevral ayının 13-də Xankəndində ermənilər «miatsum hayrenik – vətənə birləşək» şüarı ilə mitinqlərə başladılar. Bu mitinqlərin «xeyir-duası» Moskvada erməni diasporunun əlində oyuncağa çevrilmiş M.Qorbaçov tərəfindən verilmişdi. Hadisələrin gedişi Azərbaycan ərazisində təxribatların törədilməsinə ehtimal yaradırdı. Lakin digər millətlərə həmişə öz səmimi münasibəti ilə seçilən Azərbaycan xalqı həmin vaxt təxribatların qarşısının alınmasında gücsüz idi. Çünki bu təxribatlar, necə deyərlər, erməni hiyləsi ilə yoğrulmuşdu, Sovet «KQB»sinin metodları ilə həyata keçirilirdi [1, s. 2].

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılaraq Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qərar qəbul edir. Erməni millətçi və seperatçı qüvvələr gərginliyi saxlamaq üçün əllərindən gələni edir, dəridən-qabıqdan çıxırdılar.

Moskva isə yenə də tərəfləri «sakitliyə, səbrli olmağa, emosiyaya uymamağa, ağılla hərəkət etməyə» çağırırdı. Gərginliyin zəifləməsi ehtimalı erməni millətçilərini və onların havadarlarını qane edə bilməzdi. Onlar məsələnin siyasi yolla öz istədikləri kimi həll edilməyəcəyindən, ehtirasların sönə biləcəyindən ehtiyat edərək növbəti, daha riyakar və dəhşətli bir hiyləyə əl atmışdılar. Onlar 1988-ci il fevralın 27-29-da Sumqayıt hadisələrini törətməyə nail oldular. Həmin günlərdə şəhərdə törədilmiş iğtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam, o cümlədən 26 erməni həlak olmuş, 400 nəfərdən çox adam bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın sındırılmış və qismən yandırılmış, şəhərə o vaxtkı qiymətlərlə 7 milyon rubl və ya 10 milyon ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdu. Bu iğtişaşları araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən xüsusi cinayət işi açılmış, 444 nəfər adam məhkəmə qarşısında cavab verməli olmuş, onlardan 400 nəfəri 10-15 sutka təcridxanalarda saxlanılmış, bir neçə nəfər uzunmüddətli həbs cəzasına, bir nəfər – Əhməd İmran oğlu Əhmədov isə ən yüksək cəzaya – ölümə məhkum edilmiş və hökm tələsik yerinə yetirilmişdi [2, s. 4].

Sumqayıt hadisələri törədildikdən sonra şəhərdə komendant saatı elan olunmuşdu. Mindən artıq gənc həbs edilmiş, onların əlləri ilə 32 nəfər öldürülmüşdü. Həlak olanlar arasında müxtəlif millətlərdən olan adamlar, qocalar və qadınlar da vardı. Onu da qeyd eləmək lazımdır ki, sumqayıtlıların şüurlu və cəsarətli hərəkətləri olmasa idi, ölənlərin sayı qat-qat çox olardı. Belə ki, ermənilərin çoxu azərbaycanlıların evində özünə sığınacaq tapmışdılar.

Sumqayıt şəhəri hadisələri törətmək üçün əlverişli yer kimi seçilmişdi. Bunun obyektiv və subyektiv amilləri vardı. Əvvələn, hadisələrin baş verməsi ərəfəsində şəhərdə müxtəlif millətlərdən olan 258 min 200 adam yaşayırdı ki, onların 14 min 208 nəfəri erməni idi və bunların müəyyən qismi «Qarabağ» və «Krunk» təşkilatlarına üzvlük haqqı verməkdən imtina edən, bu təşkilatların millətçi və seperatçı siyasətini qəbul etməyən adamlar idi [5, s. 16].

İkincisi, ermənilər yalnız Sumqayıtda deyil, həm də Azərbaycan SSR-in Bakı, Gəncə, Şamaxı və b. şəhər və kəndlərində yaşayırdılar. Sual olunur, nəyə görə bu hadisələri törətmək üçün məhz Sumqayıt seçilmişdi? Sumqayıt, hadisələri lazımi məcraya yönəltmək, onun geniş mənada yayılmasına yol verməmək baxımından əlverişli idi.

Üçüncüsü, Sumqayıt Bakıya yaxın idi. Burada hadisələri törədib Bakıdan dərhal dünya ictimaiyyətinə antiazərbaycan təbliğatını yaymaq üçün imkan geniş idi.

Dördüncüsü, gənc sənaye şəhəri Sumqayıt dünya ictimaiyyətinin tək inşaatçılar, metallurqlar və kimyaçılar şəhəri kimi deyil, həm də xalqlar dostluğu, müxtəlif millətlərin qardaşlıq şəhəri kimi tanınmışdı. Burada hadisələri törətməklə bütövlükdə Azərbaycan xalqının təbiətinə xas olan dostluq, insanpərvərlik, beynəlmiləlçilik kimi xüsusiyyətlərinə ləkə yaxmaq, onu dünya ictimaiyyətinə millətçi, vəhşi, barbar bir xalq kimi göstərmək və bu səbəbdən də onlarla birgə yaşamağın mümkün olmaması fikrini formalaşdırmaq nəzərdə tutulurdu. Təsadüfi deyil ki, Sumqayıt ixtişaşları da əsasən şəhərin «Dostluq» və «Sülh» küçələrində törədilmişdi.

Beşincisi, Sumqayıt hadisələri ərəfəsində şəhər əhalisinin orta yaşı 25-26 il idi. Şəhərdə ağsaqqal, böyük-kiçik münasibətləri formalaşmadığından şəhər müəssisələri və texniki peşə məktəbləri yataqxanalarında yaşayan və valideyn nəzarətindən uzaq olan gəncləri hadisələrə təhrik etmək, qoşmaq asan idi.

Altıncısı, şəhər əhalisi arasında müxtəlif səbəblərdən (ictimai quruluşdan, ailədən, çalışdıqları idarənin müdiriyyətindən, yaşayış tərzindən, mənzil-məişət şəraitindən) narazı olanlar da vardı.

Yeddincisi, şəhərdə son 6-7 ildə (1981-1987-ci illərdə) həbsxanadan çıxmış– azad olmuş 2 min 378 nəfərin bu və ya müxtəlif səbəblərdən, öz şəraitlərindən narazı qalan adamlar da vardı.

Səkkizinci, şəhərdə yaranmış gərgin ekoloji vəziyyət.

Doqquzuncu, 1961-ci ilin mayın 1-də Sumqayıtda N.S.Xruşşovun «şəxsiyyətə pərəstiş» siyasəti əleyhinə etiraz nümayişinin baş tutmasının şahidi və iştirakçısı olanların başlanacaq hadisələrə ümid etmələri də müəyyən qədər psixoloji vəziyyəti gərginləşdirməsi idi.

Onuncusu, şəhərin sənaye müəssisələri rayonunda yaranmış (peyda olmuş) xalq arasında «naxolstroy» («gecəqondu») adlanan qeyri-rəsmi «qəsəbədə» antisanitariya şəraitində yaşamağa məcbur olan yüzlərlə ailənin təbii narazılığı da subyektiv amil idi.

Onbirincisi, şəhərin 40 illik tarixi boyu onun birinci şəxsinin – Şəhər Partiya Komitəsinin Birinci Katibini şəhərdə yaşayan əhalisi içərisindən «seçilməməsi», heç birinin burada yaşamaması, şəhər sakinləri ilə məişət əlaqələrinin gündəlik qayğıları ilə maraqlanmamaları, xüsusən də şəhərdə baş verəcək hadisə zamanı şəhərin başçısının orada olmayacağı nəzərə alınmışdı [5, s. 11-18].

Beləliklə, Dağlıq Qarabağ uğrunda ümummilli erməni hərəkatına təkan verə biləcək antierməni iğtişaşlarının törədilməsi üçün Sumqayıt şəhərinin seçilməsi təsadüfi deyildi və hadisələr əvvəlcədən hazırlanmış ssenari ilə 1988-ci ilin fevralın 27-29-da törədildi.

Bu hadisələr bütövlükdə götürüldükdə həm də sovet imperiyasını qoruyub saxlamağa çalışan Moskvanın müstəmləkəçi milli siyasətinin təcavüzkar erməni dairələrinin xəbis fəaliyyətinin və respublika rəhbərliyinin fərsiz mövqeyinin qanuni nəticəsi idi.

### *ƏDƏBİYYAT*

1.Bayramov V. Sumqayıt hadisələri ermənilərin düşünülmüş məkrli planı idi. «Xalq» qəzeti, 2003, 27 fevral, s. 2.
2.Qəhrəmanov N.F. Sumqayıt hadisələri: Həqiqətin bir üzü var // «Xalq» qəzeti, 2001, 1 mart, s. 4.

3.Məmmədov E. Sumqayıt hadisələri mətbuat səhifələrində. Sumqayıt hadisələri: Həqiqəti indiki və gələcək nəsillərə! Sumqayıt, SDU, 2001, s. 36-37.
4.Məmmədov E. Böyük siyasi oyunun qurbanı. «Xalq» qəzeti, 2000, 27 fevral, s. 2.
5.Sadıqov H., Məmmədov R. Ermənilərin Sumqayıt bəhanəsi. Sumqayıt hadisələri: həqiqəti indiki və gələcək nəsillərə! Sumqayıt, SDU nəşr., 2001, s. 11-18.

**Г.А.АЛЫЕВ**
***к.и.н.***
***Сумгаитсчкий государственный университет***

## СУЩНОСТЬ СОВЕТСКОЙ НАЦИОНАЛЬНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ 80-Х ГОДОВ XX ВЕКА
**(по материалам Сумгаитских событий 1988-го года)**

Всем известно, что в конце XX века существовало множество планов и концепций развала СССР и среди них самым главным считалась идея столкновения геополитических интересов, разжигание межнациональных и межгрупповых конфликтов. Одним из таких планов межнационального столкновения стали Сумгаитские события 1988-го года. Автор данной статьи пытается рассмотреть причины возникновения, зачинщиков этих событий и осудить виновников невинных жертв мирного населения.

**Q.A.ALIYEV**
***d.h.s.***
***Sumqait State University***

## ESSENCE OF SOVIET NATIONAL POLITICS IN AZERBAIJAN AT THE ENDING OF 80$^{TH}$ YEARS
**(by materials of Sumgait events in 1988)**

It is all known, that at the ending of XX century were many plans of break-up of USSR and one of them was clash of geopolitical interests, in citing of international conflicts. One of these plans was Sumgait events in 1988. Author of this article tries to look through resonance of beginning, instigators of these events and coned manes of culprits' innocent casualties.

***Rəyçilər: prof.A.B.Baxşəliyev, t.e.d.R.Süleymanov.***
***Sumqayıt Dövlət Universitetinin «Azərbaycan tarixi (humanitar ixtisaslar üzrə)» kafedrasının 07 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***